RESPUBLİKA 3 fevral 2019-cu il

# Unudulmaz el şairi



**Ulu türk yurdu Göyçə mahalı. Qədim zamanlardan bəri bu torpaqda yaşayıb yaratmış saz-söz ustaları aşıq sənətinə yenilməzlik gətirmiş, qopuzun varisi olan sazı əsrlər boyu yaşatmışlar. Bu mahalın hər bir ağsaqqalının, ağbirçəyinin sinəsində neçə-neçə nağıl, əfsanə, dastan, nəğmə, bayatı yurd salıb. Qədim tarixə, zəngin mədəniyyətə malik Göyçə elinin şifahi xalq ədəbiyyatı nümunələrindəki mifolojivarlıqlar haqqında inanclarının kökü qədim dövrlərə gedərək tanrıçılıq, şamançılıq dünyagörüşünə söykənir. Əsrlər, qərinələr ötüb keçsə də, ayrı-ayrı zamanlarda yaranmış əfsanələr, miflər, əsatirlər bu elin genetik qan yaddaşında yaşayır və nəsildən-nəslə ötürülür.**

Bineyı-qədimdən saza-sözə həssas olan göyçəlilər ayrı-ayrı hadisələrin, tarixi şəxsiyyətlərin timsalında çoxlu əfsanə, mif, əsatir yaratmışlar. Azərbaycan mədəniyyət tarixində əvəzolunmaz yeri olan Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Növrəs İman, Aşıq Qurban, Aşıq Nəcəf kimi onlarla el şairlərinin yaratdıqları əfsanə və miflər bu gün də el aşıqlarının sazında, sözündə yaşayır. Göyçə ab-havasmda doğulub böyüyənlər bu əbədi, əzəli ənənəni indi də ləyaqətlə davam etdirirlər. Belə davamçılardan biri də xalq arasında el şairi kimi tanınıb sevilən şair Zəki İslamdır.

Aşıq Ələsgər dəsti-xəttinin davamçılarından olan, gözəl şeirlər müəllifi, dəyərli ziyalı, el ağsaqqalı Zəki İslam 1939-cu ildə Göyçə mahalının Krasnoselo rayonunun Cil kəndində ziyalı ailəsində anadan olub. Kirovabad (indiki Gəncə— red.) Dövlət Pedaqoji İnstitutunu və Kirovabad Dövlət Kənd Təsərrüfatı İnstitutunu bitirdikdən sonra uzun müddət doğma rayonunun kolxoz və sovxozlarında rəhbər vəzifələrdə çalışıb.

Lakin dinimizi, adət-ənənələrimizi, folklorumuzu dərindən bilən Zəki İslam hər kəsin yaddaşında saz-söz xridarı kimi yer tutub. Vətən həsrətindən, yurd intizarından, milli-mənəvi dəyərlərimizdən bəhs edən saysız-hesabsız şeirlər müəllifinin indiyə qədər bir neçə kitabı işıq üzü görüb. “Göyçənin tonqalı sinəmdə yanır”, “Əlim Tanrı ətəyində”, “Ziyarətgahlarım mənim”, “Dünya nura bələndi”, “Qətli-mərhəb, Fəthi xeybər Əlidi”, “Məktublar, cavablar, yeni şeirlər”, “Hər bir sözün əvvəlində” , “Seçilmiş əsərləri”, “Dinim Məhəmməd dinidi”,” Dini əsərlər”, “Haqq yerindədi”, “Karvanım yoldadı” və s. kitablarında şairin el, oba, yurd, təbiət, gözəllik duyğuları öz əksini tapıb.

Taleyinə yazılan qaçqınlıq qisməti ilə heç vaxt barışmayan, Göyçə deyəndə ürəyi sızım-sızım sızıldayan şair qoynunda dünyaya göz açdığı əziz, müqəddəs yerləri bir an belə unuda bilmir, saf, büllur Göyçə gölünün nəğməli sahillərindən, hər qarışında ayaq izləri olan ata-baba yurdundan, onun əsrarəngiz təbiətindən həsrətlə danışırdı. Ulu Göyçə üçün alışıb yanan Zəki İslam doğma yurdunu bütün yaradıcılığı boyu vəsf etmişdir. Şair şeirlərinin birində deyirdi:

*Biz pürkəmal ustadları gözlərik,*
*Nəvəsiyik, izləmişik, izlərik.*
*Göyçədə yaşayan bizik, bizlərik,*
*Dağlar köçməz, köçməyəcək Göyçədən.*

Yaradıcılığının ilham mənbəyi olan Göyçəyə ruhən bağlı olması məhəbbəti, onun bütün əsərlərində hiss olunur. Göyçə həsrəti onu içiniçin yandırır, qəlbinin sızıltıları sarı simini dilləndirirdi. Bu həsrət taleyinə didərginlik düşmüş şairin yaradıcılığının ana xəttini təşkil edir, dönə-dönə bu mövzuya qayıdaraq “Göyçə” dastan-poeması, Göyçənin poetik obrazı da məhz bu sevgidən, nisgil yaranır. Şair bu nisgilin içində öz taleyini də doğma yurdum taleyi ilə birgə yaşayır.

Şairin yaradıcılıq palitrası çox zəngin və rəngarəngdir. O, yalnız Göyçə mövzusunda deyil, dini mövzularda da uğurlu poetik nümunələr yaratmışdır.

Müqəddəs yerləri ziyarət edən, dünyamıza, həm emprik, həm də dini nəzərlərlə baxan şairin xarakterik cizgilərdən olan insanpərvərlik, dinə etiqad həm də onun poetik portretini tamamlayır. Estetik dəyəri, fəlsəfi yükü ilə zəngin olan əsərlərində insanın mənəvi zənginliyini özünün poetik əsərlərində böyük məhəbbətlə tərənnüm edirdi. O, bütün əməllərində, yaradıcılığında uca Yaradana tapınır, dinimizi, etiqadımızı hər şeydən üstün tuturdu.

Taleyinə çox keşməkeşlər, enişlər-yoxuşlar düşüb Zəki islamın. Lakin o, öz sadəliyini, bu sadəliyin fövqündə ulu Tanrıya, peyğəmbərə, vətən yolunda canını fəda edən şəhidlərə, elinə-gününə böyük sevgisini qoruya, onu müqəddəs tuta və yaratdıqlarına olan sevgisini həyatının qayəsinə çevirməyə müyəssər olub. Və bütün ömrünü bu qayə ilə yaşayıb yaradıb.

El-obanın yaxşı gününü, dar gününü dəyərli məsləhətləri, səxavəti ilə el ağsaqqalı, nurani siması, şux, əyilməyən qaməti ilə yaddaşlara əbədi həkk olunan el oğlu idi Zəki İslam, onu tanıyanların qəlbində həmişə yaşayacaq.

**Oruc GÖYÇƏLİ,**
**şair, AYB-nin üzvü, “Qızıl qələm” mükafatı laureatı.**